**Atayev Ramail Musa oğlu 1956-cı il sentyabrın 3-də Gəncə şəhərində anadan olub. Şəhər 15 saylı orta və F.Əmirov adına 1 saylı uşaq musiqi məktəblərini bitirdikdən sonra təhsilini xalq çalğı alətləri şöbəsində davam etdirib.**

1975-ci ildə texnikumu tar ixtisası üzrə fərqlənmə diplomu ilə başa vuraraq Gəncə şəhər 4 saylı uşaq musiqi məktəbində əmək fəaliyyətinə başlayıb.

1982-1983-cü illərdə ordu sıralarında xidmət etdiyini nəzərə almasaq, 1981-1994-cü illərdə Ağcabədi şəhər incəsənət məktəbində direktor vəzifəsində çalışıb.

1994-1996-cı illərdə Gəncə şəhər uşaq incəsənət məktəbinin, 1996-2009-cu illərdə məktəbin Gülüstan filialının şöbə müdiri olub. 2010-cu ilin yanvar ayından Gəncə şəhər uşaq incəsənət məktəbinin direktorudur.

Ailəlidir. Bir oğlu və bir qızı var. Hər ikisi tələbədir.

Gəncə şəhər uşaq incəsənət məktəbi 1991-ci ilin sentyabrından fəaliyyət göstərir. İlk vaxtlar burada 50 nəfər şagird oxuyub. Onların təlim-tərbiyəsi ilə 10 nəfər müəllim məşğul olub. 1996-cı ildə məktəbin Gülüstan filialı açılıb.

Hazırda məktəbdə 133 nəfər, filialda isə 60 nəfər, bütövlükdə 193 nəfər müəllim çalışır. Onların 21 nəfəri ali təhsillidir.

Fəaliyyətə başladığı dövrlə müqayisədə şagirdlərin sayı da xeyli artıb. Bu gün məktəbdə 762 nəfər şagird oxuyur. Şagirdlərə fortepiano, tar, skripka, kamançа, saz, qarmon, nağara, klarnet, balaban, səs, xoreoqrafiya və təsviri incəsənət üzrə, ümumilikdə 12 ixtisas əsasında dərs keçirilir. Tədris 54 sinif otağında aparılır.





**2011-ci il istər Gəncə şəhər uşaq incəsənət məktəbi, istərsə də onun direktoru üçün əlamətdar günlər və yubileylərlə zəngindir. Məktəb özünün 20 yaşını, Ramail müəllim isə anadan olmasının 55, Azərbaycan Dövlət Konservatoriyasını bitirməsinin və 25 yaşında ikən Ağcabədi şəhər incəsənət məktəbinin direktoru təyin olunmasının 30 illiyini qeyd edəcəkdir.**

# Yubileylər ili

Məktəbin şagirdləri respublika və şəhər əhəmiyyətli festival və müsabiqələrə bir qayda olaraq həmişə fəal qoşulurlar. Buna nümunə kimi son üç ildə qazanılan uğurları göstərmək yerinə düşərdi. Bu mənada, 2008-ci il kollektiv üçün daha yaddaqalan olmuşdur. Belə ki, həmin il dahi bəstəkar Qara Qarayevin 90 illik yubileyinə həsr olunmuş "Gənc musiqiçilər təhlil və ifa edir" Respublika müsabiqəsində Nadejda Kisilyova (vokal), Orxan Mirzəyev (skripka), Zenfira Xankişizadə (fortepiano) və Ayşən İsmayılova (kamança) diploma layiq görülmüşlər.

Xalq çalğı alətləri üzrə Respublika müsabiqəsində isə yenə də Ayşən İsmayılova III dərəcəli diplom və Ülviyyə Alıyeva fəxri fərmanla qiymətləndirilmişdir. Fəxri fərmanla həmçinin müsabiqəyə yüksək səviyyədə şagird hazırlanmasına, habelə məktəbin rəsm müəllimi Raul Sadıxov rəssamların əl işlərindən ibarət zonalar üzrə baxış-müsabiqəsində I yer tutduğu üçün mükafatlandırılmışdır.

Bu uğur növbəti illərdə də davam etdirilmişdir. Belə ki, 2009-2010-cu illərdə uşaq xor kollektivlərinin VI Respublika müsabiqəsində məktəb və nümunəvi işinə görə xor müəllimi Nazilə Cəfərova, xalq çalğı alətləri üzrə Respublika müsabiqəsində Elçin Qurbanov, İlham Nəbiyev, Rahib Şirinov (qarmon müəllimi), Nərgiz Mürsəliyeva (konsertmeyster) Fəxri fərmanla, Kənan Məhərrəmov isə I dərəcəli diploma layiq görülmüşdür.

Məktəbdə tədrisin yüksək səviyyədə qurulmasını səciyyələndirən amillər bununla yekunlaşmır. Fərəhli haldır ki, incəsənət məktəbini qurtaran uşaqlar sonradan təhsillərini universitet və texnikumlarda davam etdirirlər.

Buna nümunə kimi məktəb və onun Gülüstan filialının aşağıdakı məzunlarını göstərmək olar.

Onlardan Almaz Əliyev Bakı Musiqi Akademiyasına, Gülşən Əliyeva A.Zeynallı adına musiqi texnikumuna, Yeganə Ələsgərova, Aybəniz Qurbanova, Məhəmməd Muradov, Nadejda Kisilyova, Tural Qurbanov, Türkan Fəhimzadə, Yeganə Əmirxanova, Miri Bağırov, Akif Həsənli, Könül Mayılova, Dursun Əliyeva, Məhəbbət Kazımova, Aytən Abbasova, Aynur Nağıyeva, Nəzrin Həsənov, Aqşin Tağıyev, Nuranə Hümbətova Gəncə şəhər Musiqi Texnikumuna, Tamara Əliyeva Bülbül adına orta ixtisas musiqi məktəbinə, Əfsanə Fərəcova və Gülnar İsgəndərova Şəki şəhər Musiqi Texnikumuna, Asim Ələkbərov və Gülşən Rüstəmova isə Gəncə şəhər humanitar texnikumuna qəbul olunublar.

**Məktəbin yetirmələri haqqında danışarkən Pərviz və Seymurla bağlı ayrıca söhbət açmağı lazım bilirik. Pərviz Abdullayev "Azəri-star", Seymur Hüseynov isə "Yeni ulduz" televiziya yarışmalarının qalibi adını qazanmışlar.**

**● A. QOCAYEVA**